*Cəbhənin bütün istiqamətlərində döyüşlər gedib. Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayıb.*

*Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş, dəstək və təminat vasitələri darmadağın edilib. Düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.*

ZƏFƏR gündəliyi

6-7 oktyabr

2020-ci il

# İlham ƏLİYEV: "Azərbaycan ərazi bütövlüyünü təkbaşına bərpa edir"

## 6 oktyabr



### Prezidentdən ölkəmizə atılan bütün iftiralara layiqli cavab

Rusiyanın "Pervıy kanal" televiziyasına müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın savaşa muzdlu döyüşçüləri cəlb etməsi ilə bağlı iftiralara cavab verib.

Prezident deyib ki, Azərbaycan Ordusu öz ərazilərimizi azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür:

"Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib". Dövlət başçısı vurğulayıb ki, Ermənistan yenə də dinc əhaliyə atəş açır. Bu da erməni tərəfinin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq, belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.



### Müdafiə naziri düşmənin darmadağın edilməsinin davamlılığını tapşırıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. Müşavirədə aparılan əks-hücum əməliyyatında mövcud olan vəziyyət təhlil olunaraq, düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davamlılığı tapşırılıb.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib. Nazir tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat cavab veriləcəyi bildirilib. Zakir Həsənov Azərbaycan Ordusuna arsenalındakı yüksəkdəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı tapşırır.

### İlham ƏLİYEV: "İran-Azərbaycan sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi nəzarətimizə keçib"

İran İslam Respublikasının (sabiq) Prezidenti Həsən Ruhani Azərbaycan Prezidentinə zəng edib.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın təxribatına cavab olaraq başlanan savaşda hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliy-



yatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulub.

Prezident həmçinin Ermənistanın davam edən hərbi təcavüzünün və təxribatlarının regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəl olduğunu bildirib.



### Düşmənin zirehli texnikaları məhv edilib

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb.

41-ci artilleriya alayının atəş mövqelərində dayanan "Qrad"lar Azərbaycan Ordusunun atəş zərbəsi ilə məhv edilib.

Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

## 7 oktyabr

### Çaşbaş qalan erməni hərbçilər bir-birini güllələyiblər

Bütün cəbhəboyu döyüşlər davam edib.

Cəbhənin müxtəlif istiqamətlərində qoşunlarımız qazanılan nailiyyəti genişləndirmək məqsədilə döyüş əməliyyatları aparıb. Qarşılıqlı artilleriya atışları qeydə alınıb.

Düşmənə endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılıb. Çoxlu sayda ölən və yaralananlar var.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər yaranıb. Bunun nəticəsi olaraq düşmən bölmələrinin şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edir. Digər bölmələrdə döyüş sursatları və yanacaq təminatında ciddi problemlər mövcuddur. Düşmənin bəzi istiqamətlərdəki müdafiə bölmələri arasında qarşılıqlı əlaqənin kəsilməsi səbəbindən onlar bir-birilərinə atəş açıb, ölən və yaralananlar olub.



### Düşmənin 10-dək tankı, 6 D-20 topu, 30 avtomobil texnikası məhv edilib

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verib.

Qoşunlarımızın atəş zərbəsi ilə düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk ediblər.



### İlham ƏLİYEV: "Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir"

Prezident İlham Əliyev "CNN-Türk" və "Euronews" televiziyalarına müsahibə verib.

Hər şeyin plan üzrə getdiyini vurğulayan dövlət başçısı deyib ki, Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kənd işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq: "Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir".

Döyüş meydanında məğlub olan Ermənistanın dinc əhaliyə qarşı zorakılıq göstərməsini, cəbhə xəttindən çox uzaq olan şəhər və rayonlarımıza ballistik raketlər atmasını isə Prezident belə şərh edir: "Bu, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətidir. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır".

### Ali Baş Komandan: "Biz haqq yolundan dönməyəcəyik"

Ali Baş Komandan Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində müşavirə keçirib. Prezident qeyd edib ki, Azərbaycan Ordusu döyüş meydanında uğurlar əldə edir, hər gün döyüş bölgələrində aparılan əməliy-



yatlarla bağlı ona operativ məlumatlar verilir.

Vəziyyət tam nəzarət altındadır və işğal edilmiş torpaqlarımızın bir hissəsi düşməndən təmizlənib. Artıq həmin şəhər və kəndlərimizdə Azərbaycan bayrağı dalğalanır.

Sonda baş sərkərdə qətiyyətlə vurğulayıb: "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz bundan sonra da haqq yolundan dönməyəcəyik və heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq və ərazi bütövlüyümüzü bərpa edəcəyik".

### Ağstafada düşmənin PUA-sı məhv edilib

Saat 22:00 radələrində Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərib.

Azərbaycan hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunan düşmən PUA-sı dərhal məhv edilib.



### 250-dək tank, 270 artilleriya, 150 avtomobil, 8 silah-sursat anbarı məhv edilib

Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyir. Döyüşlərdə düşmən xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər texniki vasitələri məhv edilib.

Sentyabrın 27-dən oktyabrın 7-si saat 05:30-dək düşmənin ümumi itkiləri bunlardır:

- 250-dək tank və digər zirehli texnika;
- 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 60-dək hava hücumundan müdafiə vasitələri;
- 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 8 silah-sursat anbarı;
- 150-dək avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



Azərbaycan. - 2024.-6 oktyabr (№ 219).- S.7.